EaP | Eastern Partnership

# İş yerində enerjidən istifadənin azaldılmasına sərmayə qoyuluşu

Enerjinin səmərəliliyi Aİ üçün prioritet sahələrdən biri olduğu üçün bu qurum Şərq Tərəfdaşlığı regionunda enerjidən istifadəni azaltmağa və enerjinin səmərəliliyinin təşviqinə yönəlmiş bir sıra təşəbbüslərə maliyyə dəstəyi göstərir.

İş yerinin enerjiyə qənaət baxımından səmərəli olmasına sərmayə yatırmaqla, enerji haqlarının azaldılması istiqamətində iri və uzunmüddətli nəticələr əldə edə bilərsiniz. Əhəmiyyətli miqdarda sərmayə ixtisaslaşmış səriştə tələb etdiyindən, binanın zəif cəhətlərinin müəyyənləşdirilməsi və adı çəkilən zəif cəhətlərin iqtisadi cəhətdən ən səmərəli yolla **aradan qaldırılması** məqsədilə enerji **auditi həyata keçirən** mütəxəssisə müraciət edin.



## İri miqyaslı dəyişiklik əldə etmək üçün aşağıdakı sərmayələri nəzərə alın

- **Divar və damı tam izolyasiya edin** və istilik itkisini **20-30%** azaldın.
- **Bərpa olunan enerjidən** istifadə edin və **sərfiyyatı sıfıra bərabər səviyyəyə** çatdırın.
- Enerji itkisini **10-12%** azaltmaq məqsədilə **zirzəmini izolyasiya edin və su keçirməz materiallarla örtün**.
- İş yerində enerjinin səmərəliliyini **50%-dən çox** artırmaq üçün **istilik nasoslarından** istifadə edin.
- Enerjiyə **70%** qənaət etmək üçün **çatdırılma və logistika məqsədilə elektriklə işləyən avtomobillərdən** istifadə edin.

** Təqdim edilən rəqəmlər orta hesabla götürülmüşdür və qənaət edilən enerjinin miqdarı fərqli ola bilər.*

EU4Energy

www.EU4Energy.eu